BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL

# Təhsil haqqından azad olunan şəxslər üçün təqdim olunmalı sənədlər

BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL

**1)Məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları:**

Tələbənin cari ilin sonunadək qeydiyyatdan keçirilmiş və notarial qaydada təsdiq olunmuş məcburi köçkün vəsiqəsinin surəti;

**2)Şəhid ailəsinin üzvü olan şəxslər:**

Notarial qaydada təsdiq olunmuş şəhid ailəsi vəsiqəsinin surəti;

Tələbənin doğum haqqında şəhadətnaməsinin surəti;

Valideynlərin nikah haqqında şəhadətnaməsinin surəti ;

**QEYD:** təhsil haqqından 23 yaşı tamam olana kimi azad olunur.

**3)Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura təhsil səviyyələrində ödənişli əsaslarla təhsil alan uşaqlarının təhsil müddəti ərzində :**

Notarial qaydada təsdiq olunmuş əlillik haqqında arayış;

Tələbənin doğum haqqında şəhadətnaməsinin surəti;

**4)Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura təhsil səviyyələrində ödənişli əsaslarla təhsil alan uşaqlarının təhsil müddəti ərzində :**

Notarial qaydada təsdiq olunmuş səbəbi göstərilməklə ölüm haqqında şəhadətnamənin surəti (itkin düşənin ölmüş elan edilməsi haqqında məhkəmənin qərarı)

Tələbənin doğum haqqında şəhadətnaməsinin surəti.

**5)Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar şəxslər:**

Hər iki valideyni vəfat etdikdə valideynlərinin notarial qaydada təsdiq olunmuş ölüm haqqında şəhadətnamələrinin surəti;

*Bir valideyni vəfat etmiş və o biri valideyni I və II dərəcə əlilliyi olan şəxs olan 23 yaşınadək şəxslər:*

Tələbənin doğum haqqında şəhadətnaməsinin surəti;

Notarial qaydada təsdiq olunmuş valideynin ölüm haqqında şəhadətnaməsinin surəti;

Notarial qaydada təsdiq olunmuş valideynin əlillik haqqında arayışının surəti.

**6)I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar:**

Notarial qaydada təsdiq olunmuş əlillik haqqında arayışın surəti:
Tələbənin doğum haqqında şəhadətnaməsinin surəti;